# Məhtimqulu Fəraqinin 300 illiyinə həsr olunmuş konfrans



Türkmən xalqının və Türk dünyasının mütəfəkkir şairi Məhtimqulu Fəraqinin 300 illik yubileyi ilə bağlı AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda elmi konfrans keçirilib. Konfrans Türkmənistanın Azərbaycandakı Səfirliyi və AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə birgə təşkil edilib.

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Əlyazmalar İnstitutunun baş direktoru akademik Teymur Kərimli, Türkmənistanın ölkəmizdəki səfiri Qurbanmammet Elyasov çıxış ediblər.

“Türkmənfilm” studiyasının istehsalı olan “Haqqın qulu – Məhtimqulu” sənədli filmi nümayiş etdirilib.

Sonra şairin həyat və yaradıcılığı ilə bağlı məruzələr dinlənilib.

BDU-nun Türkoloji araşdırmalar elmi-tədqiqat laboratoriyasının müdiri filologiya elmləri doktoru, professor Ramiz Əskərin türkməncədən dilimizə tərcümə etdiyi “Məhtimqulu. Seçilmiş əsərləri” kitabı təqdim olunub.

Tədbirdə Məhtimqulu Fəraqinin şeirləri də səsləndirilib.

Sonda konfrans iştirakçıları Əlyazmalar İnstitutunda türkmən şairinin əlyazma nüsxələri və nadir eksponatlarla tanış olublar.

Mədəniyyət.- 2023.- 22 noyabr, № 86.- S.7.